Gündəlik ictimai-siyasi qəzet

XALQ QƏZETİ

№ 148 (28533) 13 iyul 2017-ci il, cümə axşamı

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ



# Həyat bəxş edən insanlar, sağ olun!

**❒ Nə qədər ki, Tanrının bizə əmanət etdiyi canımız ağrı bilmir, sanki həyatın daim belə davam edəcəyini düşünüb sağlamlığımızın qayğısını arxa plana çəkir və həyatın dadını çıxararkən müxtəlif xəstəliklər iznimizi soruşmadan, səssiz – sədasız canımıza daraşır. Və bir gün gəlişini gözümüzün görmədiyi, qulağımızın eşitmədiyi bu xəstəliklər amansız əjdahaya dönüb bir göz qırpımında canımızın qəsdinə qalxır, zövq aldığımız həyatı cəhənnəm əzabı ilə nəzərimizdən salır, bizi qarşılarında aciz bir varlığa çevirir.**

Bu günlərdə yaşamaq sevgimlə bərabər qürurum nə qədər möhtəşəm və əzəmətli olsa belə, ömrümdə heç zaman qarşılaşmadığım amansız xəstəlik qarşısında acizləşdim, iradəm tükəndi, bir məqamda, hətta ümidsizləşdim. Bu, ən ağır məqamlar idi. Ruhum ağlımın gücünə uzun, qaranlıq tuneldə sanki bir qərinə yol gedib bir iynə ucu boyda işıq axtarırdı. Həyatın bitdiyi anlamını yaşadan bu məqamlarda instinktiv olaraq düşüncəmə belə bir fikir gəldi: İlahi, görəsən bu dünyanı zülmət qaranlıqda necə yaşamaq, duymaq olar?!...

...Deyəsən, işığa doğru gedirdim. Gözlərim yavaş-yavaş dümağ bir aləmə açılırdı. "Bu, hansı dünyadı? Mən haradayam?" Düşüncəmi sorğuya çəkən suallara cavab axtararkən, qulağım varlığıma doğma olan insan səsi ilə doldu və bu, bir andaca ruhuma sanki dirilik suyu çilədi; –"Hüseynbala müəllim, özünüzü necə hiss edirsiniz?" -- Yox, mən hələ həyatdayam. Gözlərimin dikildiyi hədəf isə həkimlərin əynindəki ağ xalat imiş. Mərkəzi Klinikanın ağxalatlı mələkləri...

Şaşqın-şaşqın baxdığım həmin məqamları indi xatırlayanda anlamağa başlayıram ki, ağxalatlı bu mələklər olmasa, insanlar kəmfürsət dərd-bəlaların əlində necə də aciz və köməksiz qalardılar....

... Görkəmli rus yazarı, ədəbiyyatşünas Veresayev bu müqəddəs peşə sahiblərindən bəhs edərkən yazır: "Həkimin diaqnoz qoymaq sahəsində nadir istedadı ola bilər, öz təyinatının ən incə məqamlarını duya bilər, lakin onun xəstənin qəlbini fəth etmək və onu özünə tabe etmək bacarığı yoxdursa, bütün bunlar nəticəsiz qalacaq".

Bəri başdan deyim ki, bir insan, yazıçı, siyasət adamı kimi Mərkəzi Klinikanı, burada çalışan həkimləri, tibb bacılarını, bir sözlə, öz peşələrinin ustaları olan bütöv bir kollektivi, ilk növbədə, özüm üçün müqəddəs insanlar kimi – həyat bəxş edən mələklər simasında kəşf etdim. Çünki onlar öz peşələrinə olan sədaqətləri, yüksək təcrübələri, bilik və bacarıqları ilə mənim qəlbimi bir həftədə bəlkə yüz dəfə fəth etdilər. Xəstəliyin məni aciz qoyduğu məqamda bircə onların bacarıqlarına, diqqət və qayğılarına ümid bəslədim... Və yanılmadım...

Müalicə aldığım müddətdə müşahidələrimdən yəqin etdim ki, Mərkəzi Klinikanın əməkdaşlarının işdə əsas məqsədləri və başlıca stimulları xəstələrin sağalmasıdır. Onlar üçün xəstənin gözlərindəki həyat eşqinin işığından, sevincdən və baxışlarındakı səmimi minnətdarlıqdan dəyərli nə ola bilərdi ki?! Müalicə alarkən, klinikanın direktoru İxtiyar Sultanovun, baş həkim Kamran Musayevin, reanimasiya şöbəsinin müdiri Vüqar Əbdülkərimovun, kardioloq Firdovsi İbrahimovun, tibb bacıları Aytənin, Kəmalənin, Esmiranın, Vüsalənin, Nataşanın və daha kimlərin peşələrinə vicdanlı münasibəti öz yerində, xəstələrə göstərdikləri səmimiyyətləri məni bir vətəndaş kimi qürurlandırdı. Onların hər birinin öz elmi dərəcəsi, vəzifəsi olsa da, bir amalları var -- xəstənin ümid dolu baxışlarında həyat eşqini alovlandırmaq, ömürlərinə ömür calamaq.

Məni müalicə edən mütəxəssislərin hər biri həkim etalonudur və əsl həkimə məxsus olan ən yaxşı keyfiyyətləri özlərində birləşdirirlər. Eynən Əbu Əli İbn Sinanın dediyi kimi, hər birinin "qartal gözləri, incə əlləri, ilan müdrikliyi və şir qəlbi var". Onlar təkcə mütəxəssis olaraq dərmanlarla müalicə etmirlər, həm də dərmanlardan qat-qat güclü olan tükənməyən optimizmləri və həyatsevərlikləri ilə insanlara ömür bəxş edirlər. Tibb bacılarının sonsuz işgüzarlığı, səmimiyyətləri və hədsiz səbr nümayiş etdirmələri də adamı heyrətə salır. Sağ olsunlar.

Həyata qayıtdığım həmin anları bir an belə unutmur və tibb elminin atalarından sayılan Hippokratın həkim sənəti haqqında aşağıdakı fikrinin nə qədər sərrast ifadə edildiyinə heyran qalıram: "Həkimlik sənətinə məhəbbət elə insanlığa məhəbbətdir."

Əziz İxtiyar doktor, Kamran, Vüqar, Firdovsi doktor! Qəlbimin dərinliklərindən gələn ən xoş arzularla bərabər, sizə sonsuz minnətdarlığımı bildirirəm. Rəhbərlik etdiyiniz kollektivdə bütün işlərin dəqiq tənzimlənməsi ilə yanaşı, ayrı-ayrı sahələrin mütəxəssisləri də öz işlərini zərgər dəqiqliyi ilə yerinə yetirirlər. Xəstələrə xüsusi diqqət göstərir, səbrlə müayinə edir, hər birinə fərdi yanaşırlar. Bütün bunlar sizin rəhbərlik etdiyiniz gənc, ancaq son dərəcə savadlı, öz işini dərindən bilən, sözün əsl mənasında, pasiyentlərin qəlbini fəth edən həkimlərinizə böyük etimad və ehtiram qazandırır.

Düşünürəm, qazandığınız uğurların əsas səbəblərindən biri də çalışdığınız kollektivdə yaradılan şərait, ən dar məqamda belə köməyinizə gələn yüksək standartlara uyğun tibbi avadanlıqla təminatdır ki, buna görə də dövlətimizin başçısına, cənab Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

Nə yaxşı ki siz varsınız, nə yaxşı Mərkəzi Klinika var! Var olun!

***Dərin hörmət və ehtiramla,***

***Hüseynbala MİRƏLƏMOV,***
***Milli Məclisin deputatı,***
***yazıçı-dramaturq***